QANUN № 02 (352), 2024, s. 3-7

**Yavərzadə Yavər Elçin oğlu,**
Bakı Dövlət Universitetinin Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının doktorantı
E-mail: yaver_019@inbox.ru

**UOT 340.130**
**DOI: 10.30546/2218-9130. 02.352.2024.03**

# MİLLİ HÜQUQ MƏNBƏLƏRİNİN NİSBƏTİ

***Açar sözlər:*** *hüquq, mənbə, qanunvericilik, korrelyasiya, sistem, norma.*

***Ключевые слова:*** *право, источник, законодательство, соотношение, система, норма.*

***Keywords**: law, source, legislation, relationship, system, norm.*

Milli hüquq sisteminin təhlili təsdiqləyir ki, bu sistem müxtəlif hüquqi hadisələrin və proseslərin mürəkkəb uzlaşması ilə xarakterizə olunur. Öz növbəsində milli hüquq sisteminin əsas elementlərindən biri olan hüquq mənbələri sisteminə müxtəlif tərkiblilik və çoxsəviyyəlilik kimi keyfiyyətlər xasdır. Azərbaycan hüquq sistemində çoxsaylı hüquq mənbələrinin yer alması ictimai münasibətlərin dinamikası ilə seçilən hazırki dövrün tələblərinə uyğun olan müvafiq hüquqi anlamın formalaşmasını nəzərdə tutur. Bu hüquqi anlam ilk növbədə insan və vətəndaşın təbii və ayrılmaz hüquq və azadlıqlarının tanınmasına və hüquqi təminatına əsaslanmalıdır. Bununla belə, milli hüquq sisteminə daxil olan fərqli hüquq mənbələrinin nisbəti məsələsi elmi dairədə lazım olan səviyyədə araşdırılmamışdır. Halbuki hüquq mənbələrinin dəqiq nisbətinin mövcudluğu milli hüquq sistemini formalaşdıran sistemyaradıcı faktorlardan biri hesab olunur.

Hüququn müxtəlif mənbələrinin nisbətinin müəyyənləşdirilməsi zamanı başlıca amil, fikrimizcə, onların arasındakı iyerarxik asılılığın üzə çıxarılması olmalıdır. Hal-hazırda hüquq mənbələrinin aliliyinə münasibətdə iki əsas yanaşma mövcuddur. Belə ki, müəlliflərin bir qismi beynəlxalq hüquq mənbələrinin bütün dövlətdaxili hüquq mənbələri üzərində üstünlüyünü tanıdığı halda, digərləri milli hüquq mənbələri sistemində digər daxili hüquq mənbələrinə münasibətdə normativ hüquqi aktların şərtsiz prioritetini qəbul edirlər.

Birinci mövqenin tərəfdarları ali hüquqi qüvvəyə malik aktları (o cümlədən ölkə Konstitusiyasını) qanunlar məcmusu kimi nəzərdən keçirirlər və 1995-ci il Azərbaycan Respublikası Konstitusiyasını Əsas Qanun hesab edirlər. Əslində, Azərbaycan Respublikası Konstitusiyasının heç bir maddəsi onu qanun və ya Əsas Qanun adlandırmağa əsas vermir. Əksinə, orada müxtəlif söz birləşmələri vasitəsilə Konstitusiya və qanunlar anlayışları arasında fərqlər qoyulur. Bu zaman əsasən "Azərbaycan Respublikasının Konstitusiyası və qanunları" formulasından istifadə olunur.

Azərbaycan Respublikası Konstitusiyasının mətninin təfsiri nəticəsində onun qanunların hər hansı bir növünə aid etməmək daha dəqiq yanaşmadır. Eyni zamanda qanunların hüquqi qüvvə üzrə təsnifatına ölkə Konstitusiyasından başlamaq tamamilə məntiqlidir. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin birinci hissəsinə görə milli qanunve-

ricilik sistemi aşağıdakı normativ hüquqi aktlardan ibarətdir:

1) Konstitusiya;

2) referendumla qəbul edilmiş aktlar;

3) qanunlar;

4) fərmanlar;

5) Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları;

6) mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları.

Beləliklə, ölkə Konstitusiyasının milli hüquq mənbələri sistemində yeri tam mənada onun özündə açılıb göstərilir: Azərbaycan Respublikası Konstitusiyası ən yüksək, birbaşa hüquqi qüvvəyə malikdir, qanunvericilik sisteminin əsası sayılır.

Azərbaycan Respublikasının beynəlxalq müqavilələri hüquqi aktların növlərindən biri hesab olunduğundan Azərbaycan Respublikası beynəlxalq müqavilələrinin imzalanması və ya onlara qoşulma, beynəlxalq müqavilələrin ratifikasıyası hüquqi aktın qəbulu prosesinin tərkib hissəsi olduğundan Azərbaycan Respublikasının beynəlxalq müqavilələri onun Konstitusiyasından asılı vəziyyətdə olmalıdır, çünki onlar Konstitusiyaya zidd ola bilməzlər.

Beləliklə, Azərbaycanın hüquq mənbələri sistemində Azərbaycan Respublikası Konstitusiyasının aliliyi və şərtsiz üstün olmasını qəbul etmək lazımdır ki, bu da həmçinin prinsipial olaraq Azərbaycan Respublikasının müstəqil dövlət kimi dövlət suverenliyinin müəyyən edilməsi nöqteyi-nəzərindən vacibdir.

Milli hüquq mənbələrinin iyerarxiyasında ikinci pilləni Azərbaycan Respublikasının beynəlxalq müqavilələri tuturlar. Yuxarıda göstərildiyi kimi, onlar Azərbaycan Respublikası Konstitusiyası və referendumla qəbul edilmiş aktlarla ziddiyyət təşkili etməməli və onlara uyğun olmalıdırlar.

Azərbaycan Respublikasının hüquq mənbələrinin belə iyerarxik quruluşu özü-özlüyündə heyrət doğurmaya bilmir. Çünki beynəlxalq müqavilələr mahiyyət etibarilə dövlətin qanunları kimi dövlətdaxili münasibətlərin tənzimlənməsi üçün nəzərdə tutulmayıblar. Beynəlxalq müqavilələrin “öz predmeti” mövcuddur. Bu da başlıca olaraq dövlətlərarası münasibətlər sferasıdır. Bununla belə, beynəlxalq müqavilələrin və dövlətdaxili qanunların birgə tənzimləmə sferası da mövcuddur. Bu, insan və vətəndaşın əsas və bölünməz hüquq və azadlıqlarıdır, onların həyata keçirilməsinin təminatlarıdır. Hüquq və azadlıqların belə “siyahısı” dünyanın hər bir sivil ölkəsində olmalıdır. Azərbaycan Respublikası Konstitusiyasında hüquq mənbələri arasında ikinci iyerarxiya yerinin Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinə, həmçinin Azərbaycan Respublikası ilə digər dövlətlər arasında münasibətlərin tənzimlənməsi məsələləri üzrə hüququn digər beynəlxalq mənbələrinə verilməsinin təsbit edilməsi məqsədəuyğun sayılır. Bu sıraya həmçinin insan və vətəndaşın əsas bölünməz hüquq və azadlıqlarının, onların həyata keçirilməsinin təminatının siyahısının müəyyən edilməsini də aid etmək olar. Normativ hüquqi tənzimlənmənin bütün digər məsələləri üzrə isə dövlətdaxili qanunların prioritetliyi təsbit olunmalıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinə uyğun olaraq hüquq mənbələrinin ikinci iyerarxiya qrupuna həmçinin beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsiplərini və normalarını aid etmək olar. Onu da deyək lazımdır ki, hüquq mənbələrinin bu növünün digər mənbələr, o cümlədən Konstitusiya ilə nisbətini təsbitləyən hüquqi formula müəyyən edilməmişdir. Bu baxımdan belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan Respublikası tərəfindən hamılıqla qəbul edilmiş beynəlxalq hüququn prinsip və normalarının tanınması onların ölkə Konstitusiyasına uyğunluğu şərti ilə əlaqələndirilməlidir. Hüququn qeyd etdiyimiz hər iki mənbəyi (həm beynəlxalq müqavilələr, həm

də beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normaları) hüquq mənbələrinin qüvvəsi baxımından eyni sırada yerləşdirilməli olan mənbələr statusuna malikdir.

Beləliklə, Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə milli qanunun nisbəti məsələsi bütövlükdə 1995-ci ildə birmənalı olaraq birincinin xeyrinə həll olunmuş və bu zaman onların müddəalarının ölkənin konstitusiya əsaslarına zidd olmaması şərti nəzərdə tutulmuşdur. Bundan əlavə, ölkə konstitusiyası səviyyəsində hamılıqla qəbul olunmuş beynəlxalq hüquq normalarına da xoş münasibət ifadə olunmuşdur. Azərbaycan Respublikası Konstitusiyasının 10-cu maddəsinə görə "Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur" [1]. Konstitusiyanın bu fundamental müddəası Azərbaycan xalqının ümumbəşəri dəyərlər və prinsiplər əsasında müstəqil dövlət qurmaq niyyətini birbaşa bəyan etmişdir.

Milli hüquq mənbələri iyerarxiyasında üçüncü pillə qanunlara və qanunqüvvəli hüquqi aktlara məxsusdur. Onlar ölkə hüquq sisteminin normativ tənzimləyicilərinin çoxsaylı və əsas qrupunu təşkil edirlər. Belə hal milli hüququn bu mənbələrinin digər hüquq mənbələri ilə nisbəti məsələlərinin əhatəli şəkildə baxılmasına vadar etməklə yanaşı, normativ hüquqi aktlar sisteminin elementlərinin nisbətini dəqiq şəkildə cızmağı, eləcə də Azərbaycan Respublikası qanunlarının müddəalarının qanunqüvvəli normativ hüquqi aktlarda inkişafı və konkretləşdirilməsi probleminin müəyyənləşdirilməsi zərurətini ortaya qoyur. Belə ki, nəzəri baxımdan qanunun adi və ya konstitusiya qanunu kimi müəyyənləşdirmək səlahiyyəti ali qanunvericilik orqanına məxsusdur. Həmin orqan tənzimlənəcək münasibətlərin əhəmiyyətini rəhbər tutaraq qanun layihəsinə belə statusun verilməsi barədə nəticəyə gələ bilər. Bütövlükdə isə qanunların konstitusiya qanunları sırasına daxil edilməsi meyarları qeyri-müəyyəndir. Bu baxımdan hesab edirik ki, bu növ qanunların hazırlanmasında və qəbulunda "çərçivəni" müəyyən etmək məqsədilə konstitusiya qanunlarının meyarlarını dəqiq şəkildə formulə edən xüsusi qanunun qəbuluna ehtiyac vardır. Belə ki, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının təsdiqi, habelə Azərbaycan Respublikası Dövlət bayrağının və Azərbaycan Respublikası Dövlət gerbinin təsvirinin, Azərbaycan Respublikası Dövlət himninin musiqisi və mətninin, əvvəllər Azərbaycan Respublikasının Prezidenti seçilmiş şəxsin təminatı qaydalarının, normativ hüquqi aktların dərc edilməsi qaydasının müəyyən edirilməsi Azərbaycan Respublikası Milli Məclisi tərəfindən konstitusiya qanunu ilə həyata keçirilir. Bununla yanaşı, Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsinə uyğun olaraq Azərbaycan Respublikası Konstitusiyasına əlavələr Azərbaycan Respublikası Milli Məclisi tərəfindən konstitusiya qanunları vasitəsilə edilir.

Azərbaycan Respublikasında hüquqi adətlərin istifadəsi ilə bağlı qeyd etmək lazımdır ki, hüquqi adət ictimai münasibətlərin müəyyən növünü tənzimləyən hər hansı hüquqi aktların ümumiyyətlə mövcud olmaması halında tətbiq edilir. Bu yanaşma Azərbaycan Respublikası Mülki Məcəlləsinin 10.2-ci maddəsinin "qanunvericiliyə və ya müqaviləyə zidd olan işgüzar adətlər tətbiq edilmir" [2] müddəası ilə tam təsdiq olunur.

Ümumiyyətlə, Azərbaycan Respublikasında qanunvericiliyin imperativ qaydalarının və müqavilə şərtlərinin hüquqi adətlərdən üstün olması heç bir vaxt şübhə doğurmamışdır. Ancaq bunun dispozitiv qaydalarla nizamlanan münasibətlərə şamil ediməsi düzgün deyil. Mülki-hüquqi münasibətlərin tənzimləyiciləri iyerarxiyasında müqavilə azadlığını yalnız imperativ normalar məhdudlaşdırır. Dispozitiv

normalar qanun, digər hüquqi aktlar, müqavilə, həmçinin də hüquqi adətlər tərəfindən təsirə məruz qala bilər. Ona görə də hüquqi adət kateqoriyası özünün iki növü ilə təqdim olunur: “qanuna əlavə qismində çıxış edən” adətlər (ümumi qayda) və “qanuna əks olan” adətlər (burada bir müstəsna halı qeyd etmək lazımdır ki, ticarət adəti qanunun dispozitiv normasını dəyişdirir). Məhz buna görə də qanunverici Azərbaycan Respublikası Mülki Məcəlləsinin 10-cü maddəsində işgüzar adətlərin tətbiqinin ümumi sanksiyalaşdırılması ilə yanaşı, həmin Məcəllənin Xüsusi hissəsində bir sıra hallarda onların konteksti barədə xatırladır və bu zaman onların sonuncu növünü, yəni işgüzar adətləri ehtiva edir. Bəzi müəlliflər müasir qanunvericinin belə yanaşmasını şübhə altına almadan eyni zamanda ümumi qayda qismində mülki hüquq normalarını ehtiva edən qanunqüvvəli aktların dispozitiv qaydaları üzərində hüquqi adətlərin üstünlüyünü vurğulayırlar. Digərləri isə əksinə, həmin yanaşmanın düzgünlüyünə şübhə edərək müəyyən ümummülki “əsas” adətin (bütün institutlarda dispozitiv tənzimləmə metodunun tətbiqinə imkan verən dərəcədə fəaliyyətdə olan) mövcudluğunun zəruriliyini və onun ümumi qaydaya görə qanunun dispozitiv norması üzərində prioritetliyinin vacibliyini ortaya qoyurlar [3, s. 8].

Roman-german hüquq ailəsində hüquqi adətin “qanundan əlavə” kimi fərqləndirilməsi bir çox ölkələr üçün xarakterik olan xüsusi hüququn dualizmi ilə əlaqəlidir. Lakin əgər xüsusi mənbələrə uyğun olaraq adətin bu növü də orada ikinci rola “məhkum edilibsə”, onun Azərbaycan Respublikasında xüsusi hüququn “monizm” modelinin mövcudluğu şəraitində əsaslandırılmasına olan cəhdlər mənasız görünür. Vahid mülki qanunvericilik tərəfindən ümumi sanksiyalaşdırma və istənilən ticarət adətinin hüququn mənbəyi qismində tanınması halını da unutmaq olmaz. Normativ hüquqi tənzimlənmənin vahidliyini özü-özlüyündə hüquqi aktların normaları ilə hüquqi adətlər arasında qarşılıqlı əlaqəni təmin edir və pozitiv hüquqda boşluqların aradan qaldırılmasına istiqamətlənir. Habelə qeyd etmək lazımdır ki, “qanundan əlavə adətlər”in mövcudluğu məhz boşluqlarla bağlıdır.

Qeyd edək ki, hüquq mənbələrinin ayrı-ayrı növləri milli hüquq mənbələri sistemində özlərinin hüquqi qüvvəsi nöqteyi-nəzərindən müxtəlif yer tuturlar. Belə ki, Azərbaycan Respublikası Konstitusiyası (referendumla qəbul edilən aktlar da daxil olmaqla) və qanunları arasında olan “aralıq” yer Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinə məxsusdur. Başqa sözlə, Azərbaycan Respublikasında hüquq mənbələrinin baxılan iyerarxiyasında beynəlxalq müqavilənin kifayət qədər yüksək statusu diqqəti cəlb edir. Bu isə onunla şərtləndirilir ki, o, hüquqi tənzimlənmənin qeyri-mərkəzləşdirmə və dispozitiv metodların təsdiqində əhəmiyyətli rol oynayır.

Beləliklə, hüququn müxtəlif mənbələrinin sistemli əlaqələrinin və xüsusiyyətlərinin üzə çıxarılması onların arasındakı real nisbəti tədqiq etmədən mümkün deyildir. Bu münasibətlər olduqca mürəkkəb, bəzən hətta ziddiyyətli ola bilər. Buna baxmayaraq, bu əlaqələri tam şəkildə nəzərə almaq lazımdır. Çünki, ən əvvəl, onlar Azərbaycan Respublikasında hüququn mənbələrinin daha dəqiq təsnifatının qurulmasına kömək edirlər. Bundan başqa, hüququn mənbələri arasında təməli nisbət haqqında bilgilər hüququn tətbiqi zamanı, məsələn, müvafiq hüquq qaydasının seçimi (fərqli hüquqi aktların iyerarxiyasını müəyyən etmək, onların hüquqi qaydaları arasındakı ziddiyyətləri aradan qaldırmaq və s.) mərhələsində olduqca mühümdür. Belə ki, mənbələrin arasındakı nisbətin nəzərə alınması hüquq mənbələri kimi qanunların və qanunquvvəli aktların özünəməxsus xüsusiyyətlərinin üzə çıxarılması üçün

prinsipial əhəmiyyətə malikdir. Nəhayət, hüquq mənbələrinin nisbətinin öyrənilməsi onların optimal qarşılıqlı əlaqələrinin perspektiv nümunələrinin qurulması üçün, eləcə də ictimai həyatın normativ hüquqi nizamlanması sisteminin daimi təkmilləşdirilməsi baxımından zəruridir.

**İstifadə edilmiş mənbələr:**

1. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (26 sentyabr 2016-cı il tarixdə olan əlavə və dəyişikliklər). – Bakı: Qanun, – 2019, – 96 s.

2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi // 28 dekabr 1999-cu ildə qəbul edilmişdir (15 oktyabr 2022-ci il tarixinədək olan dəyişikliklərlə). – Bakı: Qanun, – 2022, – 712 s.

3. Зумбулидзе Р-М.З. Обычное право как источник гражданского права. – СПб.: Юрид. центр Пресс, – 2004, – 380 с.

**Яверзаде Явер Эльчин оглу**

**СООТНОШЕНИЕ НАЦИОНАЛЬНЫХ ИСТОЧНИКОВ ПРАВА**

**РЕЗЮМЕ**

В статье в первую очередь отмечается, что базовые основы системы источников национального права установлены в Конституции Азербайджанской Республики 1995 г., которая рассматривает законы в качестве основных источников права, ставит нормативно-правовые акты во главе с Конституцией Азербайджанской Республики на верхнюю ступень по отношению к другим источникам азербайджанского права. Особо подчеркивается, что четкое понимание соотношения закона с иными подзаконными нормативно-правовыми актами имеет большое значение не только в теории права, но и в правотворческой деятельности.

В статье также рассмотрены правовые формулы, закрепляющие соотношение закона и подзаконного нормативно-правового акта в Азербайджанской Республике. Указывается, что, нормы подзаконных нормативно-правовых актов должны быть последовательно согласованы с нормами законов, не должны содержать каких-либо расхождений с ними. Потому что только единая, лишенная противоречий система действующих норм права может выступать эффективным регулятором общественных отношений в Азербайджанской Республике.

**Yaverzade Yaver Elchin**

**RELATIONSHIP BETWEEN NATIONAL SOURCES OF LAW**

**SUMMARY**

It is noted in the article that the basic foundations of the system of sources of national law are established in the Constitution of the Republic of Azerbaijan of 1995, which considers laws as the main sources of law, puts normative legal acts headed by the Constitution of the Republic of Azerbaijan on the top level in relation to other sources of Azerbaijani law. It is especially emphasized that a clear understanding of the relationship between the law and subordinate legal acts is of great importance not only in the theory of law, but also in lawmaking.

The article also discusses the legal formulas that fix the relationship between the law and the subordinate legal act in the Republic of Azerbaijan. It is indicated that the norms of subordinate legal acts must be consistently consistent with the norms of laws, should not contain any discrepancies with them. Because only a unified system of existing legal norms, devoid of contradictions, can be as an effective regulator of social relations in the Republic of Azerbaijan.

**Redaksiyaya daxilolma tarixi: 29.01.2024**
**Təkrar işlənməyə göndərilmə tarixi: 30.01.2024**
**Çapa qəbul olunma tarixi: 01.02.2024**